# QOY ƏDALƏT ZƏFƏR ÇALSIN!



"SƏS" qəzeti mənim üçün ən əziz qəzetdir

Azərbaycan Xalq Cümhuriyyətinin varisi - MÜSTƏQİL AZƏRBAYCAN!




3

SƏS

№ 040 (7450)

Qəzet 1991-ci il yanvarın 11-dən çıxır

26 may 2026-cı il.
Qiyməti 1 manat

## "Kəndlə şəhər arasındakı fərqlər azaldılmalıdır" - Prezident

Prezident İlham Əliyevin sədrliyi ilə kənd təsərrüfatı məsələlərinə həsr olunmuş müşavirə keçirilib



2

# Avropanın Mərkəzi Asiyaya giriş qapısı - AZƏRBAYCAN



4

## "Qurban bayramı insanın mənəvi inkişafına və cəmiyyətin harmoniyasına xidmət edir"



5

## Krediti kreditlə bağlamaq: çıxış yolu, yoxsa yeni risk?




7

## Avropa parlamenti səhvini etiraf edib geri addım atdı



6

## Ərdoğan CHP-ni "özəlləşdirir"...



5

## Bu, sənsən?..



6

# “Kəndlə şəhər arasındakı fərqlər azaldılmalıdır” - Prezident

## Prezident İlham Əliyevin sədrliyi ilə kənd təsərrüfatı məsələlərinə həsr olunmuş müşavirə keçirilib



***Mayın 25-də Prezident İlham Əliyevin sədrliyi ilə kənd təsərrüfatı məsələlərinə həsr olunmuş müşavirə keçirilib. Dövlətimizin başçısı müşavirədə nitq söyləyib. Prezident İlham Əliyev öz nitqində bildirib ki, kənd təsərrüfatının inkişafına çox böyük diqqət göstərilir. Dövlətimizin başçısı qeyd edib ki, hələ ilk dəfə prezident vəzifəsinə seçiləndən sonra 2004-cü ildə ilk təşəbbüslərindən biri regional inkişaf proqramı idi və onun da tərkib hissəsi kənd təsərrüfatının inkişafı idi.***

”2004-cü ilin əvvəlində qəbul edilmiş birinci beşillik proqram bir çox məsələlərin həll edilməsinə kömək göstərdi və biz gördük ki, bu proqramın davamı olmalıdır. Ondan sonra bir neçə beşillik regional inkişaf proqramı qəbul edildi. Bunun nəticəsində bütün regionlar canlandı, regionlarda məşğulluq artdı və böyük infrastruktur layihələri icra edildi. Bu gün bu layihələr olmadan Azərbaycanın ümumi inkişafını təsəvvür etmək mümkün deyil. O cümlədən kənd təsərrüfatının inkişafı üçün bu proqramda nəzərdə tutulmuş infrastruktur layihələri həlledici rol oynamışdı. Çünki o vaxt bölgələrdə demək olar ki, qaz təchizatı yox idi. Elektrik təchizatı ilə nəinki regionlarda, Bakıda böyük problemlər yaşanırdı, hətta böyük fasilələr olurdu. Avtomobil yolları yararsız vəziyyətdə idi. Su ilə təchizat demək olar ki, tamamilə tükənmişdi. Yeni kəndlərin dirçəldilməsi və kəndlərdə yaşayan insanların yaşayış səviyyəsini yaxşılaşdırmaq üçün bu proqramın həlledici rolu olmuşdu. O ildən bu yana bölgələrdə genişmiqyaslı infrastruktur layihələri icra edildi.

Əgər biz azad edilmiş torpaqları istisna etsək, bu gün ölkə üzrə qazlaşmanın səviyyəsi 96 faizdir. Elektrik təchizatı ilə heç bir yerdə heç bir problem yoxdur, nəinki özümüzü təmin edirik, hətta bizim böyük ixrac potensialımız yaradılmışdır. Bir çox magistral, şəhərlərarası və kənd yolları inşa edilmişdir. Böyük su anbarları inşa edilmişdir, ilk növbədə, Taxtakörpü, Şəmkirçay, Göytəpə və digərləri. Kanallar yenidən qurulmuşdur və bu proses davam etdirilir. Bir sözlə, bölgələrin və kənd təsərrüfatının inkişafı çox sürətlə getmişdir. Bunun nəticəsində bir çox istiqamətlər üzrə kənd təsərrüfatı məhsullarının istehsalında böyük artım olmuşdur. Onu da bildirməliyəm ki, bu illər ərzində bir neçə dövlət proqramı qəbul edilmişdir, üzümçülük, pambıqçılıq, fındıqçılıq, sitrusçuluq, digər istiqamətlər üzrə və bu sahələrə böyük təkan verilmişdir.”

Dövlətimizin başçısıq eyd edib ki, kənd təsərrüfatının inkişafı üçün subsidiyaların böyük əhəmiyyəti var. Azərbaycan dünyada nadir ölkələrdəndir ki, genişmiqyaslı və çoxçeşidli subsidiya mexanizmləri tətbiq edir. Düzdür, burada da təkmilləşmə üçün imkanlar var və bu edilməlidir. Müxtəlif güzəştlər verilir, o cümlədən gübrə, yanacaq güzəştləri.

SİTAT: ”Deyə bilərəm ki, bu da dünyada nadir sayda olan ölkələrdə tətbiq edilir. Fermerlərə metodik tövsiyələr verilir və hər cür dəstək göstərilir, o cümlədən güzəştli kreditlərin verilməsi. Bu gün də dövlət xətti ilə həyata keçirilən bir çox layihələr təbii ki, kənd təsərrüfatının inkişafına böyük təkan vermişdir. Məsələn, əgər pambıqçılığı götürsək, vaxtilə 70-80-ci illərdə pambıq istehsalı Azərbaycanda ildən-ilə artırdı, amma sonra müəyyən səbəblərə görə faktiki olaraq bu sahə əldən gedirdi. Həm məhsuldarlıq çox aşağı səviyyədə idi, təqribən hektardan maksimum bir ton, köhnə dillə desək 10 sentner. Azərbaycanda pambıq istehsalı 20 min tona düşmüşdü. Görülmüş tədbirlər, ildən-ilə aparılan islahatlar nəticəsində bu gün həm məhsuldarlıq, həm də istehsal artıb. Bu gün son nəticələrə görə 360 min tondan çox pambıq istehsal edilmişdi və pambıqçılıqda ixtisaslaşmış rayonlarda bunun kənddə yaşayan insanlar üçün çox böyük xeyri olmuşdur. Ancaq buna baxmayaraq, son vaxtlar kənd təsərrüfatı istehsalında dinamika məni qane etmir. Bir müddət bundan əvvəl Prezident Administrasiyasına, Hökumətə göstəriş verildi ki, kənd təsərrüfatının inkişafına dair yeni Dövlət Proqramı hazırlansın, qəbul edilsin, hərtərəfli, əhatəli olsun. Həm dövlət investisiyaları, həm özəl sektor tərəfindən cəlb ediləcək investisiyaları özündə ehtiva etməlidir. Proqram çox konkret və qısamüddətli olmalıdır”.

Dövlətimizin başçısı daha sonra bildirib ki, bu gün dünyada gedən meyillər kənd təsərrüfatının istehsalına da mənfi təsir göstərir. Müharibələr, münaqişələr, nəqliyyat zəncirlərinin qırılması, enerji sektorundakı böhran, yanacaqla bağlı olan müəyyən çətinliklər bir çox ənənəvi istehsalçıları çətin vəziyyətə qoymuşdur. Bunu nəzərə alaraq, əlbəttə ki, hər bir ölkə öz ərzaq təhlükəsizliyi haqqında düşünməlidir və konkret addımlar atmalıdır.

SİTAT: ”İkinci vacib amil, - bu yaxınlarda Bakıda keçirilmiş Ümumdünya Şəhərsalma Forumunun müzakirələrində də bu öz əksini tapmışdır, - genişmiqyaslı urbanizasiya, yəni kəndlərdən şəhərlərə olan axın. Bu, təkcə ölkəmiz üçün deyil, bütün ölkələr üçün xas olan mənfi meyildir. Ancaq bəzi ölkələr, sadəcə olaraq, bu məsələnin həlli üçün imkan tapa bilmir, yaxud da ki, düzgün strategiya işləyə bilmirlər. Biz isə elə etməliyik ki, kəndlərdən şəhərlərə yox, şəhərlərdən kəndlərə qayıdış prosesi başlasın. Bunun üçün də əlbəttə ki, kəndlə şəhər arasındakı istənilən istiqamətlər üzrə fərqlər azaldılmalıdır. Qeyd etdiyim Regional İnkişaf Proqramının və proqramlarının, - dediyim kimi, bir neçə proqram qəbul edilmişdir, - məqsədi də bu idi ki, bölgələrdə elə şərait yaradılmalıdır ki, insanlar orada yaşasınlar, qalsınlar, öz dədə-baba torpaqlarında çalışsınlar, ənənəvi fəaliyyətlə məşğul olsunlar, əkin, biçin, turizm imkanları. Yeni orada xidmət sektoru da yüksək səviyyədə olmalıdır. Onu da bildirməliyəm ki, biz Regional İnkişaf proqramlarını icra etdikcə sosial infrastruktur layihələrini də uğurla icra etmişik. Bölgələrdə məşğulluğu artırmaq və insanları torpağa daha bağlı etmək üçün biz kənd təsərrüfatının inkişafına yeni təkan verməliyik. Yenə də deyirəm, qəbul edilmiş proqramlar və qərarlar böyük dönüşə səbəb olub. Ancaq son bir neçə il ərzində kənd təsərrüfatının inkişafında müşahidə edilən durğunluq, əlbəttə ki, bizi düşündürür və bu məqsədlə Dövlət Proqramı hazırlanıb və qəbul ediləcək.

Eyni zamanda, biz xarici investorları da həm məlumatlandırmalıyıq, həm də təşviq etməliyik. Çünki bu gün bizim beynəlxalq əlaqələrimiz çox genişdir. Azərbaycanla əməkdaşlıq etmək istəyən ölkələrin sayı ildən-ilə artır. Bizim dünya miqyasında çox yüksək reputasiyamız var, çox müsbət imicimiz var. Azərbaycan artıq dünyada orta gücə malik olan dövlət kimi tanınır və bir çox ölkələrin şirkətləri müxtəlif sahələrdə bizimlə əməkdaşlıq etmək istəyirlər. Biz, əlbəttə ki, bütün şirkətlərə, o cümlədən xarici investorlara qanun çərçivəsində lazımi şərait yaradırıq. Ancaq, eyni zamanda, biz xarici şirkətləri bizə lazım olan sahələrə cəlb etməliyik. Ona görə burada səsləndirəcəyim rəqəmlər həm yerli, həm xarici investorlara bir mesajdır.

Onu da bildirməliyəm ki, aqroparkların yaradılması kənd təsərrüfatının inkişafında çox böyük rol oynamışdır. Buna baxmayaraq, buğda istehsalı və onun özünü təminetmə əmsalı bizdə artmır. Daxili istehsal 1 milyon 573 min ton, idxal 1 milyon 267 min ton. Bax, bu idxalı biz azaltmalıyıq. Təbii ki, bizim coğrafiyamızı nəzərə alaraq, əkin sahələrini nəzərə alaraq, digər kənd təsərrüfatı məhsullarının yetişdirilməsinin zəruriliyini nəzərə alaraq, biz hədəf qoymamalıyıq ki, 100 faiz özümüzü ərzaq buğdası ilə təmin edək. Ancaq hər halda 55 faiz qəbuledilməz rəqəmdir və bu, mütləq artmalıdır.

Digər dənlilər üzrə vəziyyət prinsip etibarilə müsbətdir, özümüzü 95 faiz təmin edirik və idxal da çox cüzidir. Dənli paxlalar. Daxili istehsal 23 min ton, idxal 15 min ton. Yəni özümüzü təminetmə indeksi 63 faizdir. Kartof. Özümüzü 91 faiz təmin edirik, 160 min ton idxal edirik. Ancaq onu da bildirməliyəm ki, 71 min ton da ixrac edirik. Ona görə burada, yəni kəsir o qədər də böyük deyil. Kartof istehsalının artırılması üçün də imkanlar var və biz idxalı tamamilə aradan götürməliyik və həm özümüzü təmin etməliyik, eyni zamanda, daha böyük həcmdə ixrac etməliyik.

Ət, süd, quş əti ilə 100 faiz özümüzü təmin etməliyik. Mən rəqəmləri qeyd etdim, təqribən 80-90 faiz səviyyəsindədir. Bunu 100 faizə çatdırmaq üçün mən hesab edirəm ki, imkanlar var və bu proqram qeyd etdiyim kimi, qısamüddətli olmalıdır, 2026-2030-cu illəri əhatə edəcək. Nəzərə alsaq ki, 2026-cı ilin demək olar ki, yarısı artıq arxada qalır, bu proqramın icrası üçün cəmi dörd il yarım qalır. Buna görə dövlət xətti ilə proqramın maliyyələşdirilməsi üçün vəsait bu il ayrılmalıdır. Bu yaxınlarda Bakıda keçirilmiş Ümumdünya Şəhərsalma Forumunun müzakirələrində də bu öz əksini tapmışdır, - genişmiqyaslı urbanizasiya, yəni kəndlərdən şəhərlərə olan axın. Bu, təkcə ölkəmiz üçün deyil, bütün ölkələr üçün xas olan mənfi meyildir. Bəzi ölkələr bu məsələnin həlli üçün imkan tapa, yaxud da ki, düzgün strategiya işləyə bilməyir. Biz isə elə etməliyik ki, kəndlərdən şəhərlərə yox, şəhərlərdən kəndlərə qayıdış prosesi başlasın. Bunun üçün də əlbəttə ki, kəndlə şəhər arasındakı istənilən istiqamətlər üzrə fərqlər azaldılmalıdır”.

Daha sonra Azərbaycanın kənd təsərrüfatı naziri Məcnun Məmmədov, Azərbaycan Dövlət Su Ehtiyatları Agentliyinin sədri Zaur Mikayılov çıxış edərək görülən işlər və qarşıda duran vəzifələr barədə məlumat veriblər. Sonra müzakirələr davam etdirilib.

# Azərbaycan Xalq Cümhuriyyətinin varisi - MÜSTƏQİL AZƏRBAYCAN!

***Şərqdə ilk demokratik dövlət quruluşunu yaratmış Azərbaycan Xalq Cümhuriyyəti Azərbaycan xalqının həyatına əlamətdar tarixi hadisə kimi daxil olmuşdur. Azərbaycan Xalq Cümhuriyyəti 1918-ci il may ayının 28-də "İstiqlal Bəyannaməsi"nin elan olunması ilə yaranmışdır. İstiqlal Bəyannaməsinin qəbul edilməsi bütün türk-müsəlman dünyasında, ümumiyyətlə bütün Şərqdə ilk dəfə olaraq Azərbaycanda ən demokratik respublika idarə üsulunun - parlamentli respublikanın yaradılacağından xəbər verirdi. Azərbaycan Milli Şurasının İstiqlal Bəyannaməsində deyilirdi: Bu gündən etibarən Azərbaycan xalqı hakimiyyət haqqına malik olduğu kimi, Cənub-Şərqi Zaqafqaziyanı əhatə edən Azərbaycan da tam hüquqlu müstəqil bir dövlətdir.***




Ulu Öndər Heydər Əliyev deyirdi: "Əsrin əvvəlində – 1918-ci ildə Azərbaycan xalqı öz müstəqilliyinə nail ola bildi, xalq cümhuriyyəti yarandı. Azərbaycanda Şərq aləmində ilk dəfə demokratik, hüquqi dövlət yarandı, xalq cümhuriyyəti qısa bir zamanda çox işlər gördü. Ən mühümü odur ki, Azərbaycanın müstəqilliyinin, dövlətçiliyinin əsaslarını qurdu, Azərbaycan dövlətinin, hökumətinin təsisatlarını yaratdı". 71 il sovet dövründə yaşayan Azərbaycan, müstəqilliyini bərpa etdikdən sonra, hər il ölkəmizdə 28 May Müstəqillik Günü böyük təntənə ilə qeyd edilir. Müstəqil, azad, demokratik respublika qurmaq məqsədini qarşıya qoyan Azərbaycan Xalq Cümhuriyyəti cəmi 23 aylıq fəaliyyəti dövründə öz müqəddəratını təyin etməyə qadir olduğunu nümayiş etdirdi. AXC 1920-ci il aprelin 28-də beynəlxalq hüquq normalarını kobudcasına pozan RSFSR-ın hərbi müdaxiləsi nəticəsində, aradan qaldırıldı. Şimali Azərbaycan rus-bolşevik qoşunları tərəfindən işğal edildi və yenidən Rusiyaya tabe olundu.

1991-ci ildə müstəqilliyini bərpa edən müasir Azərbaycan Respublikası, 1918-1920-ci illərdə, 23 ay ərzində, mövcud olan və müsəlman Şərqində ilk dünyəvi-demokratik dövlət kimi tarixə düşən Azərbaycan Xalq Cümhuriyyətinin siyasi varisidir.

## XALQ TƏHSİLİ VƏ MAARİFLƏNDİRMƏ ÜZRƏ İLK NAZİRLİK

Qısa müddətdə, tarixi bir missiyanı yerinə yetirərək, genişmiqyaslı demokratik islahatlar həyata keçirib. Mövcudluğunun ilk günlərindən xalq hakimiyyəti və insanların bərabərliyi prinsiplərinə əsaslanan Azərbaycan Xalq Cümhuriyyəti bütün ölkə vətəndaşlarına eyni hüquqları verdi. Azərbaycan Xalq Cümhuriyyəti, xüsusən, təhsilin, mədəniyyətin, ədəbiyyat və incəsənətin inkişafı sahəsində fəaliyyəti ilə yadda qalmışdır. Cümhuriyyət dövründə əldə olunan nailiyyətlər sırasında təhsil sahəsində olan uğurları da qeyd etməliyik. Xalq təhsili və maarifləndirmə üzrə ilk nazirlik Azərbaycan Xalq Cümhuriyyətinin hökuməti tərəfindən təsis edilib. Nazirlər Şurasının qərarı ilə 30 iyun 1918-ci ildə üç şöbədən - ümumi orta təhsil, ali və orta ixtisas təhsili, peşə məktəblərindən ibarət strukturu təsdiq edilib. Xalq təhsili sahəsində ilk önəmli tədbir məktəblərin milliləşdirilməsi olub, bu da, təhsilin doğma Azərbaycan türk dilinə keçirilməsi idi. Bununla da, ilk dəfə olaraq, azərbaycanlı uşaqların doğma dildə təhsil alma hüququ qanuniləşdirilib. 1919-cu il sentyabrın 1-də Azərbaycan Parlamenti Dövlət Universitetinin təşkili haqqında qanun qəbul etdi və bununla milli təhsil ocağının əsası qoyuldu. Demokratik Respublika dövründə kitabxana və muzey işinin quruluşunda böyük yeniliklər edilmişdir. Azərbaycan hökuməti geniş oxucu kütləsinin ehtiyaclarını ödəmək üçün Bakıda ümumi kitabxana təşkil etmək məsələsini qaldırmışdır. 1920-ci ilin apreli üçün Azərbaycanda 95 min nüsxə kitab fondu olan 11 kitabxana var idi. AXC dövründə Azərbaycanda ilk muzey "İstiqlal" Muzeyi təşkil olunmuşdur. Eyni zamanda, Bakıda Etnoqrafiya Muzeyinin yaradılması haqqında Maarif Nazirliyi qarşısında məsələ qaldırılmışdır. Xalq Cümhuriyyətinin zəngin və rəngarəng, orijinal mətbuatı olmuşdur. 1918-20-ci illərdə Bakıda, Gəncədə və respublikanın digər şəhərlərində onlarca qəzet və jurnal nəşr olunmuşdur. Azərbaycan Xalq Cümhuriyyəti 1920-ci il aprelin 28-də beynəlxalq hüquq normalarını kobudcasına pozan RSFSR-ın hərbi müdaxiləsi nəticəsində aradan qaldırıldı.

## ÖLKƏNİN SƏHİYYƏ SİSTEMİ YARADILDI

Sağlam cəmiyyətlərdə vətəndaşların sağlıq durumunun qorunması həmişə önə çəkilib. Azərbaycan Xalq Cümhuriyyəti dövründə də bütün sahələrdə olduğu kimi, səhiyyə xüsusi diqqət ayırdı. Azərbaycan Xalq Cümhuriyyəti Hökuməti yarandığı gündən əhalinin sağlamlığı qayğısına qalmış və səhiyyə sahəsində ciddi tədbirlər görmüşdür. Tarixi mənbələrdə qeyd olunduğu kimi, bu sahədə ən böyük uğurlardan biri ölkənin səhiyyə sisteminin yaradılması və təşkili işlərinə bilavasitə rəhbərlik edən dövlət icra orqanının - Səhiyyə Nazirliyinin yaradılması idi. Belə ki, Xalq Cümhuriyyəti hökumətinin ilk qərarlarından biri 17 iyun 1918-ci ildə Səhiyyə Nazirliyinin yaradılması ilə əlaqədar idi. Nazir vəzifəsinə 1903-cü ildə Xarkov Universitetinin tibb fakültəsini bitirmiş, ixtisasca cərrah olan Xudadat bəy Rəfibəyov təyin edildi. Nazirliyin 5 əsas şöbəsi - şəhər və məhkəmə tibbi şöbəsi, tibbi statistika, əczaçılıq, kənd səhiyyəsi, baytarlıq və sanitariya şöbələri vardı. Nazirliyin göstərişi ilə əhaliyə dövlət hesabına pulsuz tibbi xidmətə keçilmiş, yeni müalicəxanalar, tibb məntəqələri açılmış, dərman anbarları, laboratoriya binaları tikilmiş, lazımi avadanlıqlar alınmışdı. Azərbaycan Xalq Cümhuriyyəti cəmi 23 ay yaşamasına baxmayaraq, əhaliyə tibbi xidməti yaxınlaşdırmaq, epidemiyalara qarşı mübarizəni gücləndirmək üçün də hərtərəfli planlar işləyib hazırlamış, bununla əlaqədar qərar qəbul etmişdi. Qərarda hökumət təzə təşkil etdiyi Səhiyyə Nazirliyi qarşısında çox ciddi vəzifələr qoymuşdu. Onlardan ən önəmlisi əhalinin sağlamlığının qorunması üçün lazımi şəraitin yaradılması və antisanitariya ilə mübarizənin gücləndirilməsi idi.

Səhiyyə şəbəkəsinin genişləndirilməsinə başlandı. Kənd yerlərində xəstəxanalar, ambulatriyalar, feldşer məntəqələri və s. müalicə müəssisələri açıldı, yeni tibb ocaqlarının bünövrəsi qoyuldu. Dövlət tibb müəssisələrini dava-dərmanla, avadanlıqlarla təmin etmək məqsədilə lazımi tədbirlər görüldü. Bunun üçün dövlət aptek anbarı, laboratoriyası və s. yaradıldı. Azərbaycan Xalq Cümhuriyyəti Parlamenti və Hökuməti sağlamlığın mühafizəsinə dair vəzifələr və tədbirlər barədə bir sıra qanun və qərarlar qəbul etdi. Cümhuriyyət Hökuməti tibb xidməti heyətini genişləndirmək məqsədilə səhiyyə sistemində qısamüddətli tibb işçiləri kursları açdı. Bütün bunların nəticəsi idi ki, Xalq Cümhuriyyəti dövründə kənd yerlərində Səhiyyə Nazirliyinə tabe olan 33 kənd xəstəxanası fəaliyyət göstərirdi. Onların hər birində 1 həkim, 2 feldşer və xidmətçi tibb bacıları işləyirdi. Bu tibbi personal 6 çarpayılıq kənd xəstəxanalarında xəstələrə xidmət edir, ambulator müalicəyə ehtiyacı olanlara isə pulsuz tibbi yardım göstərirdi. Bu dövrdə qeyri-hökumət tibbi cəmiyyət, birlik və təşkilatlarının da fəaliyyəti geniş vüsət almışdı. Bakı şəhəri həkimlər cəmiyyətinin əsas fəaliyyət istiqaməti sənaye gigiyenası, yatalaq epidemiyasının aradan qaldırılması olmuşdur. Cəmiyyət Bakı Dövlət Universiteti tibb fakültəsinin avadanlıqla təchiz edilməsinə yardım göstərmək üçün Avropanın aparıcı klinikaları ilə əlaqə yaratmışdı. Bakının tanınmış həkimləri təbabətin müxtəlif sahələrində elmi nailiyyətlərin mübadiləsi məqsədilə cəmiyyətdə məruzələr edirdilər. Onun nəzdində boş iş yerlərini qeydə almaq, işsizləri həmin yerlərə yerləşdirmək, onlara vaxtaşırı yardım göstərmək məqsədilə Həkimlərə yardım bürosu yaradılmışdı. 1919-cu ildə Bakıda təsis edilmiş qeyri-hökumət tibb cəmiyyətlərindən biri də Uşaq həkimləri dərnəyi idi. Dərnək uşaqlar və yeniyetmələr arasında yayılmış yoluxucu xəstəliklərin profilaktikası və müalicəsi sahəsində təcrübə mübadiləsi aparır, qabaqcıl müalicə üsullarının tətbiqinə səy göstərir, təbliğat və təşviqat işi ilə məşğul olurdu. 1920-ci ildək Azərbaycanda, artıq 353 həkim, 450 orta tibb işçisi, 1123 yerlik xəstəxana var idi. 1920-ci ildə kənd xəstəxanaları şəbəkələrini genişləndirmək və bu məqsədlə 35 yeni xəstəxana və 56 feldşer məntəqəsi təşkil etmək barədə qərar qəbul etmiş və bunun üçün 43 milyon 321 min 950 manat pul ayırmışdı.

## "İYİRMİ ÜÇ AYDAN SONRA RESPUBLİKA SÜQUT ETDİ VƏ BU, BİR DAHA ONU GÖSTƏRİR Kİ, MÜSTƏQİLLİYİ SAXLAMAQ ONU ƏLDƏ ETMƏKDƏN DAHA ÇƏTİN İŞDİR"

Çox keçmədi ki, Sovetlər Birliyi Azərbaycanı məcburi surətdə öz tərkibinə daxil etdi. Bolşeviklər tərəfindən devrilməsinə baxmayaraq, istiqlal ideyası yenilmədi və 1991-ci ildə sovet imperiyasının dağılması ilə Azərbaycan yenidən öz müstəqilliyini bərpa etdi. 71 il sonra, 1991-ci il oktyabrın 18-də dövlət müstəqilliyini bərpa edən Azərbaycanın müstəqilliyi yenə təhlükə qarşısında idi. Yalnız Ümummilli Liderin xalqın təkidli istəyinə səs verərək, hakimiyyətə qayıdışı Azərbaycanın müstəqilliyini əbədi etdi. Ulu Öndər Heydər Əliyevin hakimiyyətə qayıdışı ilə separatçıların ölkəni parçalamaq kimi məkrli niyyətlərinə son qoyuldu. 1993-cü ildə müstəqilliyimiz böyük təhlükə ilə üzləşmişdi. Ümummilli Lider Heydər Əliyevin hakimiyyətə qayıtması müstəqilliyimizi qoruyub saxladı. Qısa bir zamanda Azərbaycanda sabitlik yarandı, enerji sahəsində dünyanın aparıcı şirkətləri ilə böyük layihələr həyata keçirildi, ölkəmiz bölgədə aparıcı dövlətə çevrildi. Böyük dövlət xadimi Heydər Əliyevin hakimiyyətə qayıtması ölkəyə sülh və inkişaf gətirdi. Dövlət çevrilişi cəhdlərinin və terror aktlarının qarşısı alındı. Müstəqil Azərbaycanın Yeni Konstitusiyası qəbul olundu. Azad və demokratik şəraitdə prezident, parlament və bələdiyyə seçkiləri keçirildi. Ölkədə demokratik dəyişikliklər aparıldı, hüquq-mühafizə və məhkəmə sistemi yenidən quruldu. Prezident İlham Əliyev: "İyirmi üç aydan sonra respublika süqut etdi və bu, bir daha onu göstərir ki, müstəqilliyi saxlamaq onu əldə etməkdən daha çətin işdir. 1918-ci ildə qaldırılmış bayraq 1920-ci ildə endirildi. Ondan sonra ilk dəfə olaraq rəsmi qaydada bu bayrağı Ulu Öndər Heydər Əliyev Naxçıvan Muxtar Respublikasının Ali Məclisinin sessiyasında rəsmi dövlət bayrağı kimi qaldırmışdır və təsis etmişdir."Ulu Öndər Heydər Əliyevin siyasətini uğurla davam etdirən Azərbaycan Prezidenti İlham Əliyev Azərbaycanın beynəlxalq nüfuzunun möhkəmləndirilməsinə, beynəlxalq təşkilatlarda səmərəli fəaliyyətə, dünya ölkələri ilə ikitərəfli və çoxtərəfli platformada əməkdaşlıq əlaqələrinin qurulmasına nail oldu. Bu gün Prezident İlham Əliyevin rəhbərliyi altında ölkəmizin dinamik inkişafı, sürətli tərəqqisi, həyata keçirilən əzəmətli layihələri, modernləşməsi və vətənimizi dünyaya yeni formada təqdim etməyə imkan yaradan müsbət dəyişikliklər hər birimizi qürurlandırır. Bu məhz müstəqil bir dövlət olaraq Azərbaycanın müstəqil şəkildə dövlət başçısı tərəfindən həyata keçirdiyi siyasətinin nəticəsidir. "Bu gün biz xoşbəxtik ki, müstəqil ölkə kimi, azad xalq kimi yaşayırıq, taleyimiz öz əlimizdədir", - deyən Azərbaycan Prezidenti İlham Əliyev müstəqilliyimizin qorunmasının, möhkəmlənməsinin ən vacib məsələlərdən biri olduğunu qeyd edib: "1918-ci ildə qurulmuş Azərbaycan Xalq Cümhuriyyəti cəmi 23 ay yaşadı. Müstəqil Azərbaycan Azərbaycan Xalq Cümhuriyyətinin varisidir və onların niyyətlərini biz həyatda təmin etdik, həyata keçirdik. Əminəm ki, müstəqillik yolunda bizim inkişafımız davamlı olacaq, uğurlu olacaq və Azərbaycanın dövlət müstəqilliyi əbədi olacaq!"

***Nəzakət ƏLƏDDİNQIZI***

## Avropanın Mərkəzi Asiyaya giriş qapısı -

# AZƏRBAYCAN

***Avropa İttifaqı (Aİ) nyeni əlaqələr qurduğu Mərkəzi Asiyaya alternativ tranzit xətti axtarır. Yaxın tarixə qədər Rusiya üzərindən gerçəkləşdirilən marşrutlar bəlli səbəblərdən kəsilib. İrana qarşı tətbiq olunan sanksiyalar da diqqətin Orta Dəhlizə yönəlməsinə ciddi səbəb olub. Bu yaxınlarda Avropa İttifaqı Şurasının prezidenti Antonio Koştanın, ardınca Kaya Kallasın Azərbaycana səfəri onsuz da yaddaş zəifliyindən əziyyət çəkən, ikili standartlar tətbiq etməkdən zövq alan İttifaq rəsmilərinin "qoca qitə"nin nə qədər problem yaşadığından xəbərdar olduqlarını göstərir. Bu gün Azərbaycan Orta Dəhlizin əsas seqmentidir, ölkəmizin iştirakı olmadan heç bir layihə həyata vəsiqə qazana bilməz, bunu Aİ-dəkilər artıq əvvəlkindən daha çox anlamağa başlayıblar.***



### Bəs Mərkəzi Asiya ölkələri bu fürsətdən necə yararlanırlar?

Türkmənistan hökuməti Transxəzər Enerji Tranziti Layihəsinə inteqrasiya perspektivlərini araşdırır. Bu, Özbəkistan, Qazaxıstan və Azərbaycanın enerji sistemlərini Avropa İttifaqı ilə birləşdirəcək yüksək gərginlikli sualtı ötürmə xəttinin tikintisini əhatə edir. Aşqabad elektrik enerjisi təchizatını şaxələndirməklə yanaşı, ənənəvi sahələrdə də səylərini gücləndirir, Aİ ölkələrinə birbaşa təbii qaz tədarükü ilə bağlı müzakirələrə qayıdır və nəqliyyat və logistika layihələrində iştirak edir. Xəzər regionu iddialı infrastruktur layihələri üçün bir arenaya çevrilir və Türkmənistan bunda mühüm rol oynayır. Ölkə sadəcə əməkdaşlığı genişləndirmir, həm də Şərqlə Qərbi birləşdirən strateji "körpülər" qurur. Bu, 2019-cu ildə qlobal Rəqəmsal İpək Yolu təşəbbüsünün əsas elementi olan Türkmənbaşı və Siyəzən arasında sualtı fiber-optik rabitə xətti (FOCL) haqqında müqavilənin imzalanması ilə başlanılıb. 300 kilometrdən çox uzunluğunda olan bu boru kəməri hələ də inkişaf mərhələsindədir, lakin Asiya və Avropanın telekommunikasiya şəbəkələri arasında 4-5 Tbit/s-yə qədər ötürmə qabiliyyəti təmin edərək məlumat ötürülməsində inqilab edəcəyinə söz verir.

İndi Aşqabad daha da irəli getməyə hazırdır və eyni dərəcədə əhəmiyyətli bir "enerji körpüsü" yaradır. Bu, Türkmənistanın Avropa Birliyinə elektrik enerjisi ixrac etmək üçün nəzərdə tutulmuş Xəzər dənizinin dibi boyunca enerji kabeli çəkmək layihəsində potensial iştirakını nəzərdə tutur. Bu plan yalnız artıq gücü pula çevirməyəcək, həm də bütün Orta Asiya və Qafqaz regionlarının enerji balansını optimallaşdıracaq.

Türkmənistanın enerji kabeli ilə bağlı danışıqlara hazırlığının ilk rəsmi siqnalı 17-22 may 2026-cı il tarixlərində Bakıda keçirilən Ümumdünya Şəhərlər Forumu (WUF13) çərçivəsində verilib. Türkmənistan Energetika Nazirliyinin nəzdindəki "Türkmənenerqo" Dövlət Enerji Korporasiyasının Xarici İqtisadi Əlaqələr və İxrac Departamentinin baş işçisi Abdulla Cəlilov hakimiyyət orqanlarının Xəzər dənizi üzərindən kabel çəkilməsi ilə bağlı əsaslı danışıqlara başlamaq niyyətini açıqlayıb. Bu layihə, xüsusilə də Türkmənbaşıda güclü 1574 MVt gücündə birləşdirilmiş dövrəli elektrik stansiyasının tikintisi fonunda aktualdır. Abdulla Cəlilov izah edib ki, "elektrik enerjisi Azərbaycana, oradan isə Xəzər kabeli vasitəsilə digər ölkələrə ixrac ediləcək".

Cəlilov qeyd edib ki, transxəzər enerji körpüsü məsələsi Azərbaycan və Türkmənistan hökumətlərarası komissiyaları səviyyəsində müntəzəm olaraq müzakirə olunur. Hələlik yekun qərar qəbul edilməsə də, Aşqabad bu layihənin həyata keçirilməsinə qəti sadiqliyini nümayiş etdirib və bütün tərəflər üçün əhəmiyyətli iqtisadi faydalar əldə edib. Azərbaycan həmçinin Türkmənistan elektrik enerjisinin Avropa bazarlarına daha da tədarükü üçün əsas tranzit ölkə hesab olunur. Yeni bəyanat Türkmənistan və Brüssel arasında enerji dialoqunda mühüm addımdır və əvvəllər elan edilmiş planları mükəmməl şəkildə tamamlayır. 2026-cı ilin aprel ayında Antalyada keçirilən diplomatik forumda Türkmənistanın xarici işlər naziri Rəşid Meredov ölkənin Avropa İttifaqına təbii qaz tədarükünü qurmaq istəyini bir daha təsdiqləyib.

Nazir bildirib ki, "Türkmənistanın enerji gündəliyinin əsas prioritetlərindən biri Avropaya təbii qaz tədarüküdür", - deyə nazir 15-20 il əvvəl Xəzər dənizi vasitəsilə Türkmənistan qazının çatdırılması layihəsi üzrə avropalı tərəfdaşlarla səmərəli əməkdaşlığı xatırladıb. Meredov vurğulayıb ki, bu planları həyata keçirmək üçün mövcud konvensiyaya uyğun olaraq Xəzər dənizinin dibinin delimitasiyası ilə bağlı beynəlxalq hüquqi məsələlərin həlli vacibdir. O bildirib ki, müasir geosiyasət kontekstində enerji də daxil olmaqla təhlükəsizlik məsələləri ən vacib məsələyə çevrilir və Türkmənistan geniş əməkdaşlığa hazırdır və bütün maraqlı tərəflərə öz imkanlarını təklif edir.

Xarici işlər naziri enerji ilə yanaşı, nəqliyyat təhlükəsizliyi mövzusuna da toxunub. O, Mərkəzi Asiyanı Şərq-Qərb və Şimal-Cənub marşrutlarının kəsişməsində strateji nəqliyyat mərkəzi kimi müəyyən edib. Nazir regionun logistika potensialını tam şəkildə açmaq üçün ölkələrin Asiya ilə Avropanı birləşdirən dəhlizlərin rahat işləməsini təmin etmək üçün səylərini birləşdirməli olduqlarına inanıb.

Türkmənistan xarici işlər nazirinin müavini Əhməd Qurbanov 16 may tarixində Aşqabadda Avropa Gününü qeyd etmək üçün keçirilən tədbirlərdə Türkmənistanla Avropa İttifaqı arasında əməkdaşlığın keyfiyyətcə yeni praktik səviyyəyə çatdığını bildirib. O, Aİ ilə inteqrasiyanın Aşqabadın xarici siyasətinin əsas vektorlarından birinə çevrildiyini vurğulayıb. Siyasi dialoqun yüksək səviyyəsi müntəzəm yüksək səviyyəli təmaslarla, o cümlədən Türkmənistan Prezidentinin Mərkəzi Asiya-Aİ sammitində iştirakı ilə təsdiqlənir.

2026-cı ilin mart ayında Aşqabadda keçirilən genişmiqyaslı Türkmənistan-Avropa Birliyi biznes forumu Avropa "Qlobal Qapı" strategiyasının həyata keçirilməsində mühüm addım olub. Görüşü şərh edən Türkmənistanın Maliyyə və İqtisadiyyat naziri Məmmətqulu Astanaqulov vurğulayıb ki, Avropa Birliyi ilə əməkdaşlığımız ən konstruktiv şəkildə inkişaf edir. Türkmənistan ticarət, enerji, nəqliyyat və logistika sahələrində qarşılıqlı faydalı əlaqələrin genişləndirilməsi istiqamətində Aİ-nin kursunu tam dəstəkləyir.

Bu yaxınlarda Türkmənistan xalqının lideri Qurbanqulu Berdiməhəmmədov Birləşmiş Krallığa səfər edib. Dəvət kral ailəsindən gəlib və bu da özlüyündə incə diplomatik oyun üçün ton müəyyən edir. Keçmiş prezidenti səfərdə qızı, Uşaq Rifahı Xeyriyyə Fondunun vitse-prezidenti Oğulcahan Atabayeva müşayiət edib və bu, səfərə xüsusi humanitar əhəmiyyət qatıb. Bu görüşün əsas səhnəsi sərt ofis deyil, məşhur Kral Vindzor At Şousunun keçirildiyi Vindzor Qalasının günəşli çəmənlikləri idi. Məhz burada, dəbdəbə və aristokratik cazibədarlıq arasında Berdiməhəmmədov Kral III Çarlzla görüşüb. Britaniya monarxı 2015-ci ildə Türkiyənin Çanaqqala şəhərində keçirilən anım mərasimlərində ilk görüşlərini səmimi qəlbdən xatırlayaraq, həmin günlərin ona "unudulmaz təəssüratlar" bəxş etdiyini etiraf edib.

Görünür, "atçılıq diplomatiyası" bir daha qüsursuz effektivliyini sübut edib. III Çarlz artıq 2027-ci ildə Britaniya yarışlarında əfsanəvi Axal-Teke atlarını görmək arzusunu bildirib. Buna cavab olaraq Qurbanqulu Berdiməhəmmədov monarxı Türkmənistanın müstəqilliyinin 35-ci ildönümü şənliklərinə dəvət edib. Dəvət qəbul edilib.

***V.VƏLİLİ***



## Lisey, gimnaziya və orta məktəb arasında hansı fərqlər var?

**"Lisey, gimnaziya və orta məktəb arasında hansı fərqlər var və valideynlər bu fərqləri yetərincə bilirlərmi?" sualı əslində çox vacib və aktual mövzulardan biridir. Çünki müasir təhsil sistemində valideynlərin, şagirdlərin və ümumiyyətlə ictimaiyyətin ən çox qarşılaşdığı məsələlərdən biri məhz bu təhsil müəssisələri arasındakı status və proqram fərqləridir".**



Bu sözləri SİA-ya açıqlamasında İlqar Orucov, fəlsəfə doktoru, Azərbaycan Gənc Alim, Doktorant və Magistrlər Cəmiyyətinin sədri İlqar Orucov deyib. O bildirib ki, ilk olaraq ümumtəhsil məktəblərindən, yəni orta məktəblərdən başlayaq. Orta məktəblər dövlətin müəyyən etdiyi təhsil standartlarına uyğun şəkildə ümumi baza biliklərinin verilməsini təmin edir. Bu məktəblərə qəbul imtahansız həyata keçirilir. Şagirdlər əsasən yaşayış yeri və qeydiyyat üzrə ərazi prinsipi ilə həmin məktəblərə qəbul olunurlar. Tədris proqramı standart kurikulum əsasında qurulur və bütün fənlərə təxminən bərabər zaman ayrılır. Məqsəd isə hər bir uşağın konstitusion hüququ olan pulsuz və icbari təhsili təmin etməkdir: "Gimnaziyalar isə daha çox xüsusi istedadı və humanitar sahələrə meyli olan şagirdlər üçün nəzərdə tutulur. Burada təhsil daha seçilmiş və dərinləşdirilmiş proqram əsasında təşkil edilir. Gimnaziyalara qəbul mərkəzləşdirilmiş imtahan vasitəsilə aparılır və yüksək nəticə göstərən şagirdlər qəbul olunurlar. Humanitar yönümlü fənlərə daha geniş yer ayrılır və şagirdlərin analitik düşüncə, nitq və dünyagörüşünün inkişafına xüsusi diqqət yetirilir.

Liseylərdə isə əsas diqqət daha çox dəqiq və təbiət elmlərinə yönəldilir. Riyaziyyat, fizika, kimya, biologiya və informatika kimi fənlər gücləndirilmiş şəkildə tədris olunur. Liseylərə qəbul da adətən yüksək nəticə tələb edən imtahanlar vasitəsilə həyata keçirilir. Xüsusilə mühəndislik, kompüter elmləri, tibb və riyaziyyat sahəsinə marağı olan şagirdlər üçün liseylər daha uyğun seçim hesab olunur. Bu baxımdan hesab edirəm ki, həm valideynlər, həm də şagirdlər bu təhsil müəssisələri arasındakı fərqləri mütləq bilməlidirlər. Çünki düzgün seçim uşağın gələcək inkişafına birbaşa təsir göstərir. Seçim təsadüfi və ya cəmiyyətin formalaşdırdığı stereotiplər əsasında deyil, uşağın bacarıqları, maraqları və düşüncə istiqaməti nəzərə alınaraq edilməlidir.

Əgər şagird daha çox humanitar təfəkkürə sahibdirsə, gimnaziya onun üçün uyğun ola bilər. Dəqiq elmlərə marağı və potensialı yüksəkdirsə, lisey daha doğru seçim sayıla bilər. Əsas məsələ uşağın qabiliyyətini düzgün müəyyən edib onu uyğun istiqamətə yönləndirməkdir".

***Ayşən Vəli***

# “Qurban bayramı insanın mənəvi inkişafına və cəmiyyətin harmoniyasına xidmət edir”

**“Qurban bayramı İslam dünyasında həm dini, həm də sosial-mənəvi mahiyyət daşıyan mühüm bayramlardan biridir. Bu bayramın əsas ideya bazası insanın Allaha yaxınlaşması, Onun əmrlərinə səmimi itaət göstərməsi və mənəvi kamilliyə doğru irəliləməsidir”.**



Bu sözləri SİA -ya açıqlamasında Qafqaz Müsəlmanları İdarəsinin sədr müavini Fuad Nurullayev bildirib. Onun sözlərinə görə, Qurban mərasiminin zahiri icra forması heyvanın kəsilməsi və onun müəyyən qaydalar üzrə bölüşdürülməsindən ibarətdir:



Ənənəyə əsasən, qurban ətinin bir hissəsi ailə üzvləri üçün, bir hissəsi qohum-əqrəba və qonşular üçün, digər hissəsi isə sosial müdafiəyə ehtiyacı olan təbəqələr üçün nəzərdə tutulur. Bu bölgü mexanizmi bayramın sosial ədalət və həmrəylik funksiyasını gücləndirir. Qurban bayramının tarixi-fəlsəfi kökləri İbrahim peyğəmbərin (ə.s.) Allah tərəfindən sınağa çəkilməsi hadisəsi ilə əlaqələndirilir. İslam mənbələrinə görə, Hz. İbrahim ilahi əmrə tam itaət göstərərək ən dəyərli varlığını belə Allah yolunda fəda etməyə hazır olduğunu nümayiş etdirmişdir. Lakin ilahi iradə insanın qurban edilməsini deyil, itaət və sədaqətin simvolik ifadəsini tələb etmiş, bu sınaq heyvan qurbanı ilə əvəz olunmuşdur.

Bu kontekstdə qurban anlayışı təkcə ritual akt kimi deyil, həm də mənəvi dəyər sistemi kimi çıxış edir. Burada əsas məqsəd insanın nəfsini tərbiyə etməsi, mənəvi saflaşması və sosial məsuliyyət hissini gücləndirməsidir. Qurban vermə aktı eyni zamanda fərdi və kollektiv şüurda mərhəmət, paylaşma və empatiya kimi dəyərlərin formalaşmasına xidmət edir.

Sosial baxımdan Qurban bayramı cəmiyyət daxilində ünsiyyətin möhkəmlənməsinə, sosial fərqlərin yumşaldılmasına və yardım ənənələrinin genişlənməsinə şərait yaradır. İnsanlar bir-birini ziyarət edir, ehtiyac sahiblərinə dəstək olur və ümumi sosial həmrəylik mühiti formalaşdırırlar. Bu isə bayramın yalnız dini deyil, eyni zamanda sosial inteqrasiya funksiyasını da ön plana çıxarır. Qurban bayramı həm dini ritual, həm də sosial-mədəni institut kimi çıxış edərək insanın mənəvi inkişafına və cəmiyyətin harmoniyasına xidmət edir.

*Günay Hacıyeva*

# Ərdoğan CHP-ni “özəlləşdirir”...

## Mətləb Salahov: “Kamal Kılıçdaroğlunun yenidən sədrliyə qaytarılması Türkiyə siyasəti üçün əsl "zəlzələ" effekti verib"

**“Hazırda Türkiyə siyasətində ciddi gərginlik yaşanır. Məsələ əsas da İstanbul Bələdiyyəsinin keçmiş sədri olan İmamoğlu ilə bağlıdır. Hazırda həbsdə olan keçmiş İstanbul bələdiyyə sədrini digər ittihamlarla yanaşı, həm də CHP-nin sonuncu qurultayında saxtakarlıq etməkdə və Özgür Özəlin xeyrinə iş aparmaqda ittiham edirlər. Türkiyə məhkəməsinin CHP-nin son qurultayının nəticələrini ləğv etməsi və Kamal Kılıçdaroğlunu yenidən sədrliyə qaytarması Türkiyə siyasəti üçün əsl ”zəlzələ” effekti verib.”**

Bu fikirləri SİA-ya açıqlamasında jurnalist ekspert Mətləb Salahov bildirib.



O qeyd edib ki, hazırda CHP-də daxili gərginlik pik həddindədir və bir çoxları baş verənlərdə hakim partiyanı, konkret Rəcəb Tayyib Ərdoğanı günahlandırırlar. ”Bu məsələlərdə tək hədəf cənab Ərdoğandır. CHP-lilər onu partiyanı xaosa sürükləməkdə və ana müxalifət partiyasını parçalamaqda ittiham edirlər. Özgür Özəl və tərəfdarlarının, habelə əksər CHP-lilərin Kamal Kılıçdaroğlunu sədr kimi qəbul etməyəcəklərini bəyan etməsi Türkiyə siyasəti üçün gələcəkdə böyük gərginliyə bir işarədir.

Əlbəttə, CHP parçalanarsa və zəifləyərsə, o zaman bu vəziyyət hakim AKP-nin siyasi meydanda rəqibsiz qalması demək olacaq. Çünki Ərdoğan hakimiyyətinə qarşı seçkilərdə tək güclü rəqib CHP-dir. Baş verənlər məntiq baxımından R.T.Ərdoğanın CHP-ni ”özəlləşdirdiyi” fikrini ortaya çıxarır. Çünki məhkəmənin sədrliyə qaytardığı K. Kılıçdaroğlu Ərdoğana loyal münasibətu ilə seçilir. Üstəlik, Türkiyə prezidentinin son çıxışlarında K. Kılıçdaroğlunu tərifləməsi də onun ”Ərdoğanın adamı” olması barədə ciddi rəy yaradır”.

*Afət Tahirqızı*



Elçin Bayramlı

# Yazılmamış qaydalara riayət etməyi necə formalaşdırmaq olar?

***Cəmiyyətimizdə qanunlara və qaydalara etinasız yanaşma halları hələ də qalmaqdadır. Bir çox insanlar qaydalara riayət etmək deyil, onları pozmağı müəyyən mənada üstünlük kimi qəbul edirlər. Halbuki inkişaf etmiş cəmiyyətlərin əsas göstəricilərindən biri məhz qanunlara və ictimai davranış qaydalarına hörmətlə yanaşmaqdır.***

Ümumiyyətlə, iki növ qayda mövcuddur: yazılmış qanunlar və yazılmamış qaydalar. Yazılmamış qaydalar etik davranış kodeksi, ictimai mədəniyyət və insanların bir-birinə münasibəti ilə bağlı olan dəyərlər sistemidir. Bunların hamısını qanun maddəsi şəklində yazmaq mümkün deyil. Bu qaydalar insanın daxili mədəniyyəti və ictimai məsuliyyət hissi ilə formalaşır.

Təəssüf ki, bir çox hallarda bu qaydalara riayət olunmur. Bunun əsas səbəblərindən biri məsuliyyət və ictimai qınaq mexanizminin zəif olmasıdır. İnsan bilməlidir ki, etdiyi qayda pozuntusu həm hüquqi, həm də ictimai baxımdan qəbulolunmazdır.

Son dövrlərdə müxtəlif sahələrdə tətbiq olunan cərimə və inzibati tədbirlərin müəyyən nəticə verdiyini görürük. Təcrübə göstərir ki, yalnız maarifləndirmə kifayət etmir. Nəzarət, cəza və məsuliyyət mexanizmi də mütləq olmalıdır. Bu, təkcə Azərbaycana aid məsələ deyil. Dünyanın inkişaf etmiş ölkələrində də ictimai qaydalar ciddi nəzarət və yüksək cərimələr hesabına formalaşıb və qorunur.

Məsələn, bir çox Avropa ölkələrində ictimai qaydanın pozulmasına görə ciddi maliyyə sanksiyaları tətbiq edilir. İnsanlar həm cərimədən, həm də ictimai qınaqdan çəkindikləri üçün qaydalara əməl etməyə çalışırlar və zamanla bu davranış həyat tərzinə çevrilir.

Bu baxımdan hesab edirəm ki, bizdə də ictimai davranış qaydalarının qorunması istiqamətində daha təsirli mexanizmlər tətbiq olunmalıdır. Söhbət yalnız pul cərimələrindən getmir. Məsələn, qayda pozan şəxslər ictimai faydalı işlərə cəlb oluna bilərlər. Ağacəkmə aksiyalarında iştirak etmək, parkların təmizlənməsində çalışmaq və ya digər sosial işlər görmək kimi tədbirlər həm tərbiyəvi, həm də ictimai baxımdan daha faydalı ola bilər.

Ətraf mühiti zibilləndirməkdən tutmuş ictimai yerlərdə səs-küy yaratmağa qədər bütün bu hallar cəmiyyətin ümumi mədəniyyətinə mənfi təsir göstərir. Ona görə də həm dövlət nəzarəti, həm ictimai nəzarət, həm də məsuliyyət mexanizmi paralel şəkildə işləməlidir.

Çünki cəzasızlıq və nəzarətsizlik heç bir problemi həll etmir. Qanunun aliliyi, ictimai məsuliyyət və qarşılıqlı hörmət isə sağlam və inkişaf etmiş cəmiyyətin əsas şərtlərindən biridir.

Şəhərin hər köşəsində zibil qablarının olmasına baxmayaraq, mərkəzi küçələrdə belə yerdə zibil qalıqları ilə rastlaşmaq mümkündür. İnsanların tullantıları bunun üçün ayrılmış qutulara atması istiqamətində hər dəfə daha təkmilləşdirilmiş addımlar atılsa da, ətraf mühitin məişət tullantıları ilə bağlı problemi bitmək bilmir.

Görünür ki, bu sahədə maarifləndirmə artıq effekt vermir, sərt cəzalar tətbiq edilməlidir. Ətrafı zibilləyən, eləcə də zibil qablarından düzgün istifadə etməyən şəxslər mütləq şəkildə cərimələnməlidir

Bu problem görülən bütün tədbirlərə baxmayaraq, aradan qalxmaq əvəzinə getdikcə kəskinləşir. Hərçənd son dövrdə dövlət tərəfindən müasir zibil qabları qoyulub, müasir maşınlarla sistemli şəkildə bunun daşınması təşkil olunub, xeyli işçilər ayrılıb, amma hələ də ictimai davranış düzəlmir. Bunun səbəbi ilk növbədə odur ki, burada cəza mexanizmi yoxdur. Çünki bizim cəmiyyət qanunlara, qaydalara riayət etməkdə maraqlı deyil.

Hər cür tullantıya uyğun zibil qutuları ayrılsa da, onlara məhəl qoyan yoxdur, bütün növ zibilləri eyni yerə atırlar, hətta zibil qablarının yaxınlığında yerə atırlar. İnsanlara ətrafa zibil ataraq xəstəliklərin yayılmasına səbəb olduğunu ancaq hüquqi-qanuni yolla başa salmaq lazımdır

Bu, iradla həll olunası problem deyil, gərək adam həmin hərəkətə görə 100 manat cərimə edilsin ki, bir də bunu təkrarlamasın. Bu sahədə dövlət öz öhdəsinə düşən işləri 99 % həll edib, problem sakinlərdədir. Hətta zibil torbalarını binaların balkonlarından birbaşa aşağı, yaxud şaxtalara atırlar. Dünyanın heç yerində belə biabırçılıq yoxdur. İnsanları pul cəriməsi qorxudur deyə qaydaqanunlara riayət etməyə məcbur olurlar. Digər metodlar istənilən effekti verəcək gücə sahib deyil.

# Avropa parlamenti səhvini etiraf edib geri addım atdı



Azərbaycanın güclü, qüdrətli dövlət olduğu beynəlxalq təşkilatlarda, aparıcı dövlətlərdə etiraf olunur. Ona görə də dövlətlər, nüfuzlu beynəlxalq təşkilatlar istənilən məsələ ilə bağlı Azərbaycanın irəli sürdüyü təklifi, ideyanı dəyərləndirib, müzakirə edirlər. Bəzən beynəlxalq təşkilatlar tərəfindən göstərişə və rüşvət qarşılığında Azərbaycanla bağlı yanlış qərarlar qəbul edilir ki, bu qərarlarında acı nəticəsini az sonra özləri çəkmiş olurlar. Hətta səhvə, yanlışlığa yol verildiyi etiraf olunur. Buna misal olaraq, AŞPA deputatlarının Azərbaycanın səsvermə hüququnun məhdulaşdırılması haqqında faşist rejiminin əsas təşkilatçılarından olan Frank Şvebe-rin irəli sürdüyü layihənin dəstəklənməsindən az sonra qurumun söz sahiblərinin ciddi yanlışlığa yol verildiyini etiraf etmələrini göstərmək olar. Eyni üzrxahlıq notlarında mövqe Avropa Parlamenti tərəfindən sərgilənməkdədir. Qurumun rüşvətə və korrupsiyaya bulaşmış deputatları cari ilin aprel ayının 30-da Azərbaycan haqqında separatçı qətnamə qəbul etmişdir. Qərar birbaşa erməni maraqlarına və separatizmin formalaşmasına xidmət edən qərar olmuşdur. Haqlı olaraq Azərbaycan Avropa Parlamenti ilə bütün sahələrdə əməkdaşlıq əlaqələrini dayandırılıb. Bununla bağlı məsələ Milli Məclisdə müzakirə olunan qərar layihəsində əks olunub. Qərara əsasən, Milli Məclisin Avropa Parlamenti ilə bütün istiqamətlər üzrə əməkdaşlıq əlaqələri dayandırılır. Parlamentin Avropa İttifaqı-Azərbaycan Parlament Əməkdaşlıq Komitəsinin fəaliyyətində iştirakına son qoyulur.

Təbii ki, Avropa Parlamenti ilə əlaqələrin dayandırılması qərarı qurumun üzvlərini ciddi narahat edib. Çünki qurum Azərbaycan kimi sivil, demokratik dövlətlə əlaqələrindən, əməkdaşlıq münasibətlərindən məhrum olur. Yəni aydın düşüncəyə malik Avropa Parlamentinin bəzi dövlətləri Azərbaycan haqqında yanlış qərar qəbul etməklə ən çox itkiyə məruz qalan Avropa Parlamentinin olacağını anlayırlar. Ona görə də, mayın 21-də Strasburqda Avropa Parlamentinin plenar iclasının sonunda Azərbaycan parlamentinin Avropa Parlamenti ilə əməkdaşlığı dayandırmaq və "Euronest"dən çıxmaq barədə qərarını narahatlıq və həyəcanla müzakirə ediblər. Əksər deputatlar Avropa Parlamentinin aprelin 30-da Azərbaycanla bağlı qəbul etdiyi qərarın yanlış olduğunu və səhvin etiraf olunmasının vacibliyini qeyd ediblər. Avropa Parlamentinin "Euronest"dəki nümayəndə heyətinin rəhbəri Sergey Laqodinski Bakını çıxma qərarını yenidən nəzərdən keçirməyə çağırıb. O qeyd edib ki, ölkə "Şərq tərəfdaşlığı" çərçivəsində regional dialoqun mühüm hissəsi olaraq qalır və onun Qara dəniz strategiyası, nəqliyyat əlaqəsi, energetika, rəqəmsal infrastruktur və regionda qarşılıqlı əməkdaşlıq layihələri üzrə müzakirələrdə iştirakı zəruridir.

## Üzr istənilməsi gözlənilir

Deputatların bir hissəsi çıxışlarında açıq şəkildə bildiriblər ki, Aİ-nin və Avropa Parlamentinin özünün hərəkətləri Bakı ilə münasibətlərdəki böhranın səbəblərindən biri olub.Ən kəskin çıxışlardan biri Avropa Mühafizəkarları və İslahatçılar qrupundan olan deputat Kristian Terheşin bəyanatı olub.O bəyan edib ki, Azərbaycan parlamentinin qərarı Brüssel üçün həyəcan siqnalı olmalıdır. K.Terheş birbaşa Avropa Parlamentini ittiham edib ki, qurum apreldəki Ermənistanla bağlı qətnaməni Bakıya təzyiq aləti kimi istifadə edib: "Bu parlament (Avropa Parlamenti - red.) Ermənistanın demokratik inkişafı hissəsində hamımızın dəstəklədiyi 2026-cı il aprel qətnaməsini Azərbaycana hücum etmək üçün istifadə etdi, bu tamamilə lazımsız, ağılsız və əksməhsuldar idi".

K.Terheş xüsusi diqqəti ona yönəldib ki, məhz hazırda Ermənistan və Azərbaycan sülh sazişinin bağlanmasına yaxınlaşmağa çalışır: "Onilliklər boyu müharibələrdən sonra onlar nəhayət birlikdə işləyir və barışıq və sülh müqaviləsinin imzalanması üçün real səylər göstərirlər". Onun fikrincə, bu fonda Avropa Parlamentinin hərəkətləri siyasi cəhətdən uzaqgörən görünmürdü. Deputat, həmçinin Avropa siyasətinin ümumi üslubunu tənqid edib: "Daimi moralizatorluq, ideoloji qınama ilə vəsvəsə - bu xarici siyasət deyil. Bu siyasi səbatsızlıq və geosiyasi intihardır". K.Terheş xəbərdarlıq edib ki, belə praktika artıq tərəfdaşların uzaqlaşmasına gətirib çıxarır: "Biz Gürcüstan və digər dövlətlərlə bağlı da eyni dinamikanı müşahidə edirik. Onlar ikili standartlar və təkəbbürlü yanaşma səbəbindən Avropa İttifaqından getdikcə daha çox uzaqlaşırlar".

Onun qiymətləndirməsinə görə, Aİ məhz Cənubi Qafqaz və Mərkəzi Asiyanın strateji əhəmiyyət kəsb etdiyi bir vaxtda mövqelərini itirmək riski ilə üzləşir: "Azərbaycan sadəcə Aİ-nin başqa bir tərəfdaşı deyil. O, Avropanın enerji təhlükəsizliyi və nəqliyyat əlaqəsi üçün əsas əhəmiyyətə malikdir".

## "Azərbaycan Avropaya Rusiya qazından asılılığı azaltmağa kömək edib, yanacaq tədarük edir"

K.Terheş çıxışı zamanı vurğulayıb ki, Azərbaycan Avropaya Rusiya qazından asılılığı azaltmağa kömək edib, yanacaq tədarük edir və Ukraynaya humanitar yardım göstərir: "Azərbaycan kimi ölkələrin uzaqlaşdırılması sadəcə məsuliyyətsizlik deyil, bu geosiyasi cəhətdən özünüməhvetmədir". Onun sözlərinə görə, Avropaya realizm, strateji düşüncə və qarşılıqlı hörmətə əsaslanan tərəfdaşlıq lazımdır, daimi nəsihətlər və özünü üstün hesab etmə hissi deyil."Patriots for Europe" qrupunun deputatı Anjelin Füre Bakı ilə münasibətlərdəki böhranı regionda Avropa strategiyasının iflası kimi təqdim edib: "Azərbaycanın "Euronest"dən çıxmaq qərarını sadəcə prosedur addımı hesab etmək olmaz. Bu, Avropanın strateji cəzasıdır".

A.Füre böhranı birbaşa Aİ-nin hərəkətləri ilə əlaqələndirib: "Biz sizin müdaxiləniz və Ermənistana münasibətdə yanaşmamızın bədəlini ödəyirik".Onun sözlərinə görə, Avropa eyni vaxtda Bakı ilə enerji əməkdaşlığını saxlamağa və siyasi təzyiqi gücləndirməyə çalışırdı: "Siz düşünürdünüz ki, qaz tədarükünü təmin edəcəksiniz, amma eyni zamanda bütün bu qətnamələri qəbul edirdiniz".

A.Füre əlavə edib ki, Avropa nə humanitar məqsədlərə nail olub, nə də Azərbaycanla münasibətləri yaxşılaşdırıb. O, həmçinin Avropa strukturlarını dövlətlərin yerini tutmağa cəhddə ittiham edib: "Siz dərs keçmək üçün dövlətlərin rolunu öz üzərinizə götürdünüz".

Daha sonra o geosiyasətə keçib və bəyan edib ki, Aİ bəyannamələrlə məşğul olarkən region Avropasız yenidən qurulmağa başlayıb. Onun sözlərinə görə, ABŞ administrasiyası Azərbaycan və Ermənistanın maraqlarını uzlaşdıraraq tranzit dəhliz yarada bilib.A.Füre xüsusi diqqəti yeni marşrutun ("Tramp Marşrutu", TRIPP - red.) artıq iqtisadi ölçü qazanmasına yönəldib: "Yeni strateji yol meydana çıxdı - sülh yolu və faktiki olaraq ABŞ kapitalı tərəfindən idarə olunan".

"Geoiqtisadi baxımdan Avropa təcrid olunmuş vəziyyətdə qalıb, Mərkəzi Asiyanın yeni siması isə Aİ-siz formalaşır" - deputat qeyd edib. Bu arada Avropa dünyanın öz gözləri önündə yenidən qurulmasını seyr etməyi dayandırmalıdır.

Onun son çağırışı Avropa institutlarına ünvanlanıb: "Dünyaya dərs verməyi və mühazirə oxumağı dayandırın. Ölkələrə öz işləri ilə məşğul olmağa imkan verin və yetkin realpolitikaya keçin".Deputat Tyerri Mariani isə öz növbəsində bəyan edib ki, hazırda Cənubi Qafqaz unikal nöqtədədir, onilliklər boyu münaqişədən sonra Bakı və İrəvan sülhə yaxınlaşıb. O xatırladıb ki, əvvəllər tənzimləmə praktiki olaraq qeyri-mümkün hesab olunurdu: "Bu gün çoxlarının qeyri-mümkün hesab etdiyi baş verir - barışıq prosesi başlayır".

Lakin onun fikrincə, Avropa Parlamenti əks istiqamətdə hərəkət edir, odun üstünə yağ tökən qətnamələr qəbul edir. T.Mariani qeyd edib ki, Azərbaycan Avropa Parlamenti ilə konstruktiv münasibətlər qurmaq istəyirdi, lakin qanuni narahatlıqları səbəbindən qapını bağlayıb."Qafqazda sülhə Avropa Parlamentinin müdaxiləsi ilə deyil, regiondakı danışıqlar yolu ilə nail olunacaq", - o yekunlaşdırıb.

Avroparlamentari Tomas Frölih Azərbaycan ətrafındakı böhranı Aİ-nin xarici siyasətinin daha geniş problemi ilə əlaqələndirib: "ABŞ və Çin ilə pis münasibətlər yaranıb, Rusiya ilə isə ümumiyyətlə münasibətlər yoxdur. Aİ-nin tədricən dünya siyasətinin kənarında qaldığı təəssüratı yaranır".

Deputatın sözlərinə görə, Azərbaycan Avropa Parlamentinin mənəvi qiymətləndirmələrindən yorulub.T.Frölih xəbərdarlıq edib ki, Bakı ilə davam edən münaqişə Avropanın energetikasına zərbə vura bilər: "Əgər biz Azərbaycanla bu cür ünsiyyət qurmağa davam etsək, bu, Avropanın enerji təhlükəsizliyinə son zərbə ola bilər".

Nəticədə müzakirələr zamanı sual yaranır - Avropa siyasətinin özü - qətnamələrin, təzyiqin, açıq məzəmmətlərin və dəyər ritorikasının birləşməsi - məhz Cənubi Qafqazın sülh tənzimləmə mərhələsinə daxil olmağa başladığı bir anda Aİnin strateji cəhətdən mühüm regionda nüfuzunu itirməsinə gətirib çıxarmadımı.

**İ.ƏLİYEV**



# Bu, sənsən?..

**MƏTANƏT**

***Söz yox ki, hər bir qadın, xüsusilə də gənc qızlarımız hər gün güzgü qarşısında bəzənib-düzənmədən, makiyaj etmədən bayıra çıxmırlar, bu da təbiidir, çünki qadın baxımlı olmalıdır. Kimi universitetə, kimi işə, kimi toy-düyünə, kimi gəzməyə yollanır. Nəzərə alsaq ki, dövrümüzün dəblərindən biri də şəkil çəkdirməkdir, gün ərzində evdən çıxan qadınların əksəriyyətinin heç olmasa, bir neçə şəkil çəkdirməməsi mümkün deyil.***

Müxtəlif pozlarla çəkdirilən bu şəkillər isə hökmən sosial şəbəkələrdən birində nümayiş edilməlidir. Çünki dövrümüzdə özünü nümayiş, reklam etdirmə, tələbə, iş yoldaşlarına, qohumlara göstərmək kimi də bir dəb var. Elə ki, fotolar çəkildi, həmin dəqiqə paylaşıla bilməz. Gərəkdir ki, bu fotolar müxtəlif proqramlar vasitəsilə arzu olunan formaya salınsın, daha sonra paylaşılsın.

Sağ olsunlar, yeni texnologiyanın imkanlarını hər gün bir qədər də artıranlar. Son vaxtlar elə proqramlar var ki, onu əvvəldən seçməklə effektli şəkil çəkdirmək olur. Lakin bəla oradadır ki, bəzi qızlar həmin fotoların da üzərində bir qədər işləməli olur: ya burun kiçildir, ya dodaq böyüdür, ya da sızanaqlarını bir qədər də gizlədir, daha sonra paylaşırlar.

Həmin şəkillərə baxdıqca, lap yaxından tanıdığın birinin axı əslində o olmaması adama çox qəribə gəlir. Belə bir sual çıxır meydana ki, biz kimi aldadırıq? Axı əslində bu fotodakı sən deyilsən. Effektdən son həddə qədər istifadə edib özünü dəyişdirməklə deyil, sən, bu, deyilsən. Sən səhər güzgüdə gördüyün sənsən, sosial şəbəkələrdə paylaşdığın sən deyilsən. Onsuz da kimin harada hansı fotosunu paylaşmasından asılı olmayaraq bir çərçivəsi var və həmin çərçivədəki hər kəs onu yaxşı tanıyır. Qaldı, kənardakı tanımayan insanlar, onlar da nə vaxtsa qarşılaşa və əslində necə olduğunu görə bilirlər.

Elə söhbətin bu yerində sosial şəbəkələrdən birində tanış olduğum qadın yadıma düşdü. Hər gün onu həmin sosial şəbəkədə görürdüm. Qadın o qədər gənc, gözəl görünürdü ki, adam baxdıqca baxmaq istəyirdi.

Günlərin birində bir tədbirdə həmin qadınla rastlaşmalı oldum. Salamlaşdıq, görüşdük, həyatda da tanış olduq. Lakin gördüm ki, o, heç də mənim indiyədək tanıdığım qadın deyil. Düzdür, çirkin qadın yoxdur, o da gözəldir. Lakin mənin hər gün gördüyüm gənc qadın deyildi. Nə üz dərisi gördüyüm kimi təravətli idi, nə gözlərinin altı parlaq və qırışsız. Gözlərinin altı həm qara ləkəli, həm də qırışlı idi. Üzü mən gördüyüm şəffaflıqda deyildi. O saat anladım ki, müasir dövrün fotolarla aldatdıqlarından biriyəm. Ürəyimdə sual verdim:-Bu, sənsən? Cavabını da təəssüf ki, özüm verməli oldum. Xeyr, bu, o deyil. Sən aldanmışlardansan...

# Süni İntellekt və rəqəmsal vicdan



Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

*Yazı Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi ilə "elmi-kütləvi, mədəni-maarif, təhsil proqramlarının hazırlanması "istiqaməti çərçivəsində hazırlanıb*

***Bəşər tarixinin heç bir dövründə, hətta ilk dəfə ixtira edildiyi dövrdə belə texnologiya bu günkü qədər populyar olmayıb. Gün boyu başımızı qaldırmadığımız smartfonlar, önündə robota döndüyümüz sosial şəbəkələr, asılı olduğumuz alqoritmlər, bizə yön verən internet, getdikcə daha çox sahədə üzərimizdə hökmranlıq quran süni intellekt sistemləri hər an daha çox həyatımıza soxulur.***

Son illərdə süni intellekt texnologiyalarının inkişafı insan həyatının demək olar ki, hər aspektini dəyişdirməyə başlayıb. Alqoritmlər bankçılıqdan təhsilə, səhiyyə sektorundan təhlükəsizlik sistemlərinə qədər bir çox sahədə aktiv rol oynayır. Bu gün bəzi şirkətlər işə qəbul proseslərində namizədlərin qiymətləndirilməsini süni intellekt dəstəkli sistemlərdən istifadə edərək aparırlar, xəstəxanalar diaqnostik proseslərdə məlumatların təhlilini ona həvalə edir. Sosial şəbəkə platformaları hansı məzmunun daha çox göstərilməli olduğuna qərar vermək üçün istifadəçi davranışlarını təhlil edir, bir sözlə bizi rəqəmsal dünya idarə edir.

Ortaya maraqlı və son dərəcə vacib bir sual çıxır: öhdəsinə əhəmiyyətli qərarlar buraxılan bu sistemlər həqiqətən ədalətlidirmi? Mütəxəssislərin fikrincə, süni intellekt sistemləri yalnız ona verilən məlumatlar qədər qərəzsiz ola bilər. İstifadə olunan məlumatlarda qərəz varsa, alqoritmlər eyni qərəzləri təkrarlaya bilər. Bu vəziyyət, xüsusən də işə qəbul, kredit qiymətləndirməsi, təhlükəsizlik təhlili və dövlət xidmətləri kimi vacib sahələrdə ciddi etik müzakirələrə səbəb olur.

Bu gün şəxsi məlumatlar rəqəmsal iqtisadiyyatın ən dəyərli resurslarından biri hesab olunur. İnsanların hansı məzmunu izlədikləri, nə aldıqları, harada olduqları və hətta hansı mövzularla maraqlandıqları böyük məlumat sistemləri tərəfindən təhlil edilir. İnternet, süni intellekt bizi qarabaqara izləyir desək, yanılmarıq. Mütəxəssislər bildirirlər ki, sosial şəbəkə istifadəçiləri teztez fərqinə varmadan rəqəmsal izlər buraxırlar. Bu isə, məlumatların təhlükəsizliyi və məxfilik müzakirələrini əvvəlki dövrlə müqayisədə daha vacib edir. Xüsusilə, son illərdə baş verən böyük məlumat sızmaları, şəxsi həyatların faş olması milyonlarla insanın şəxsi məlumatlarının təhlükəyə atıla biləcəyini göstərdi.




Kibertəhlükəsizlik mütəxəssislərinin fikrincə, qeyri-etik məlumatların istifadəsi gələcəyin ən böyük qlobal problemlərindən biri olacaq.Texnologiya şirkətlərinin istifadəçi məlumatlarını necə topladığı, saxladığı və istifadə etdiyi artıq yalnız texniki məsələ deyil; bu, həm də insan hüquqları ilə birbaşa əlaqəli bir məsələ hesab olunur.

Generativ süni intellekt sistemlərinin yayılması ilə etik məsələlərin müzakirəsi yeni bir müstəviyə keçdi. Artıq saniyələr ərzində insan səsindən fərqlənməyən şəkillər, saxta olduğu çətin anlaşılan deep-fake videolar və məzmun yaratmaq mümkündür. Əgər açıq desək, süni intellekt xüsusilə hökumətləri qəfil yaxaladı. Məxfi informasiyalar təhlükə altına düşdü, onlara əlçatanlıq mümkün oldu. Ona görə də bir çox ölkə hökuməti süni intellekt sistemləri üçün yeni qaydalar üzərində işləyir. Texnologiya mütəxəssisləri gələcəkdə etik qaydalara əməl etməyən süni intellekt sistemlərinin ciddi sanksiyalarla üzləşə biləcəyini bildirirlər.

Ümumiyyətlə, texnologiya dünyasında sadəcə innovativ olmaq artıq yetərli hesab edilmədiyi üçün, şəffaf, məsuliyyətli, insan mərkəzli, təhlükəsiz sistemləri inkişaf etdirilməlidir. Rəqəmsal dövrün ən böyük etik müzakirələrindən biri sosial şəbəkə platformaları vasitəsilə baş verir. Çünki milyardlarla insanın hər gün etdiyi standart paylaşımları əsasən alqoritmlər tərəfindən formalaşdırılır. Mütəxəssislərin fikrincə, sosial şəbəkə sistemləri istifadəçiləri platformada daha uzun müddət saxlamaq üçün tez-tez emosional reaksiyaları artıran, diqqəti cəlb edən məzmunlara üstünlük verir. Bu isə sosial şəbəkələrdə qütbləşməni, informasiya çirklənməsini, rəqəmsal asılılığı gündəmə gətirir.

Texnologiya sahəsindəki etik müzakirələr təkcə şirkətləri deyil, həm də təhsil sistemini dəyişdirir. Dünyanın bir çox ölkəsində universitetlər indi mühəndislik və proqram təminatı təhsili üzrə etika kurslarına da üstünlük verirlər. Çünki gələcəkdə proqram təminatı sahəsində fəaliyyət göstərəcək tələbələr yalnız kod yazmayacaqlar, onlar həmçinin hazırladıqları texnologiyaların cəmiyyətə təsirini, şəxsi həyat toxunulmazlığını, ictimai təhlükəsizliyi də nəzərə almalı olacaqlar.

Gələcəkdə etik standartların süni intellekt mühəndisliyi, robototexnika, biotexnologiya, kibertəhlükəsizlik, məlumat və informasiya ehtiva edən digər sahələrdə də əhəmiyyətli olacağı gözlənilir. Etik bacarıqların inkişaf etdirilməsi texno-şirkətlər üçün müsbət cəhət hesab olunacaq.

Rəqəmsal dövrdə ən böyük rəqabət artıq yalnız sürət və innovasiyaya əsaslanmayacaq, həm də etik qaydalara əməl etmək üstünlük olacaq. Yaxın gələcəkdə texnologiya şirkətlərinin qlobal bazarda qala bilmələr üçün etik uyğunluq, məlumatların şəffaflığı, istifadəçi təhlükəsizliyi, insan hüquqlarına hörmət kimi anlayışların daha həlledici olacağı gözlənilir. Çünki artıq insanlar təkcə yaxşı işləyən texnologiyaları deyil, həm də vicdanlı və düzgün işləyən sistemləri seçəcəklər.

Texnologiya hər gün daha da güclənir, inkişaf edir, təsəvvür etdiyimizdən də fərqli müstəvilərə keçir. Lakin məsələ texnologiyanın nə qədər inkişaf etmiş olması deyil, insanların ondan hansı məqsədlər üçün istifadə etmələridir. Çünki gələcək yalnız süni intellekt sistemləri, alqoritmlər və ya məlumat mərkəzləri ilə müəyyən edilməyəcək, gələcək həm də bu sistemlərə nəzarət edən insanların vicdanı ilə formalaşacaq. Əgər vicdan da rəqəmsallaşacaqsa gələcək daha təhlükəli olacaq.

**Lalə Mehralı**

# Krediti kreditlə bağlamaq: çıxış yolu, yoxsa yeni risk?

## İqtisadçı mühüm məqamlara aydınlıq gətirdi

***Bəzi hallarda vətəndaşlar mövcud kredit borcunu başqa bankdan fərqli şərtlərlə götürülən kredit hesabına bağlayırlar. Bunun hər zaman düzgün seçim olub-olmaması ilə bağlı suallar da yaranır. Bəs hansı hallarda bu seçim vətəndaş üçün səmərəli ola bilər? Kredit borcunun başqa bank vasitəsilə bağlanması çıxış yoludur, yoxsa vətəndaş üçün əlavə maliyyə riski yarada bilər?***

Məsələ ilə bağlı iqtisadçı Asif İbrahimov SİA-ya açıqlamasında bildirib ki, mövcud kredit borcunu başqa bankdan götürülən kredit vasitəsilə fərqli şərtlərlə bağlamaq mümkündür: "Bu məsələ praktikada geniş tətbiq olunur. Mövcud kredit borcunun başqa bankdan götürülən yeni kredit hesabına bağlanmasına adətən refinans, yenidən maliyyələşmə və ya kreditin restrukturizasiyası deyilir. Bu üsul bəzi hallarda vətəndaşın maliyyə yükünü azalda bilir, lakin bir çox hallarda əksinə, borcun daha da böyüməsinə səbəb ola bilər. Buna görə də belə addımlar atarkən təhlil aparılmalı və qərarlar düşünülmüş şəkildə verilməlidir. Emosional qərarlar deyil, hesablanmış maliyyə təhlili əsasında qərar qəbul edilməlidir.




Bir çox hallarda vətəndaşın başqa bankda kredit borcu olur, lakin digər bank daha sərfəli və daha uyğun şərtlərlə kredit məhsulu təklif etdikdə, həmin şəxs yeni krediti götürərək əvvəlki bankdakı borcunu bağlayır və kreditini başqa banka daşıyır. Bu, daha düşünülmüş və ağıllı addım hesab oluna bilər. Məsələn, vətəndaş 24-25 faizlə kredit götürüb, lakin başqa bir bank 12-15 və ya 14-16 faizlə kredit təklif edir. Bu halda yeni kredit götürərək əvvəlki krediti bağlamaq mümkündür. Ətrafımızda belə təcrübədən istifadə edən çox sayda insan var.



Lakin bəzi hallarda vətəndaşın ödəmə qabiliyyəti azalır və aylıq ödənişlər büdcəsinə uyğun gəlmir. Bu zaman kredit müddətinin uzadılması təklif olunur. Bir çox hallarda müddət uzandıqda aylıq ödəniş məbləği azalır, lakin ümumi kredit məbləği artır. Həmçinin fərqli bank və ya kart borclarının bir kreditdə birləşdirilməsi məqsədilə də belə kreditlərdən istifadə etmək mümkündür. Bu da müəyyən hallarda müsbət nəticələr verə bilər. Əlbəttə ki, faiz və ödəniş şərtləri daha rahat olarsa, bu, müştəri üçün daha uyğun seçim hesab edilə bilər. Bu həm də kredit tarixçəsinin müsbət formalaşmasına və vahid ödəniş tarixçəsinin yaranmasına kömək edə bilər. Nəticədə vətəndaş gəlir və xərclərini daha düzgün planlaşdıra bilir. Müsbət tərəflərlə yanaşı, mənfi tərəfləri də nəzərə almaq lazımdır. Bir çox hallarda vətəndaş yalnız aylıq ödənişə diqqət yetirir, halbuki əsas məsələ ümumi geri ödəniləcək məbləğdir. Aylıq ödəniş azalsa da, kredit müddəti 2 ildən 7-8 ilə qədər uzana bilər. Nəticədə vətəndaş daha çox faiz ödəyir və maliyyə baxımından daha çox itki ilə qarşılaşır.

Bundan əlavə, komissiya və gizli xərclər də yarana bilər. Yeni kredit zamanı sığorta haqları, xidmət haqları, komissiyalar, notariat xərcləri və kart xərcləri əlavə oluna bilər. Bəzən aşağı faiz təklifi təqdim olunsa da, əlavə xərclər son nəticədə həmin üstünlüyü aradan qaldırır. Əgər əsas problem gəlirin azalmasıdırsa, yeni kredit köhnə problemi sadəcə ertələyir, həll etmir. Borc yükü davam edir, əlavə faizlər yaranır və gələcəkdə daha ağır maliyyə problemləri meydana çıxa bilər.

Nəticə olaraq, kreditin başqa bank vasitəsilə bağlanması yalnız daha aşağı faiz, daha uyğun ödəniş şərtləri və vətəndaş üçün real maliyyə üstünlüyü yaratdığı hallarda faydalıdır. Əks halda, bu addım sadəcə mövcud problemi təxirə salır. Məsələn, aylıq ödəniş azalsa da, kredit müddəti uzanır və gələcəkdə vətəndaş daha böyük maliyyə yükü ilə qarşılaşa bilər".Arzu Qurbanlı

SON SƏHİFƏ
SƏS
26 may
2026-cı il

# Qurbanlıq heyvanı bəzəmək məqbuldur?



ARAŞDIRMA

***Qurban bayramı əsrlərdir həm dini, həm də mədəni ənənələrin bir hissəsi kimi müxtəlif ölkələrdə fərqli şəkildə qeyd olunur. Son illərdə isə xüsusilə sosial şəbəkələrin təsiri ilə qurbanlıq heyvanların bəzədilməsi, rəngli lentlər, xına, aksesuarlar və müxtəlif dekorlarla təqdim olunması daha çox müzakirə olunan mövzulardan birinə çevrilib. Bəs qurbanlıq qoyunu bəzəmək nə dərəcədə məqbuldur? Bu, dini baxımdan necə qiymətləndirilir və dünyada bu ənənəyə necə yanaşılır?***

Qurbanlıq heyvanı bəzəmək haradan yaranıb?. SİA mövzu ilə bağlı araşdırma edib.

Tarixən bir çox xalqlarda qurbanlıq heyvanın xüsusi şəkildə hazırlanması hörmət və bayram rəmzi hesab olunub. Azərbaycanda da bəzi bölgələrdə qurbanlıq qoyunun boynuna lent bağlamaq, xına yaxmaq və ya onu təmiz, baxımlı vəziyyətdə təqdim etmək ənənəsi olub. Bu daha çox bayram abu-havası və qurbanlığa verilən dəyərin göstəricisi kimi qəbul edilirdi. Bənzər hallar Türkiyə, Pakistan, Hindistan, Mərakeş və bəzi ərəb ölkələrində də müşahidə olunur. Xüsusilə uşaqlar üçün qurbanlıq heyvanların bəzədilməsi emosional bağlılıq və bayram sevinci yaradan bir detal kimi təqdim edilir.

## Dini baxımdan münasibət necədir?

İslam alimlərinin əksəriyyəti bildirir ki, qurbanlıq heyvanın təmiz saxlanılması, baxımlı olması və ona yaxşı davranılması tövsiyə olunur. Hətta dini mənbələrdə heyvana əziyyət verməmək, onu qorxutmamaq və yaxşı rəftar etmək xüsusi vurğulanır.

Lakin heyvanın həddindən artıq bəzədilməsi, ona əziyyət verəcək formada boya vurulması, ağır aksesuar taxılması və ya nümayiş məqsədilə şou elementinə çevrilməsi bəyənilmir. Bir çox ilahiyyatçı qeyd edir ki, qurban ibadətində əsas məqsəd səmimiyyət, paylaşmaq və ibadətin mahiyyətidir, görüntü yarışı deyil. Sadə və zərərsiz bəzək bəzi cəmiyyətlərdə normal qarşılanır;

Heyvana əziyyət verən və israf xarakteri daşıyan davranışlar isə uyğun hesab edilmir.

## Dünyada qurbanlıq heyvanlar necə hazırlanır?

**Türkiyə**

Türkiyədə xüsusilə kənd bölgələrində qurbanlıq qoçların boynuna lent bağlamaq, yununa xına vurmaq geniş yayılıb. Bu, daha çox "bayramlıq hazırlıq" kimi qəbul edilir.

**Pakistan və Hindistan**

Bu ölkələrdə qurbanlıq heyvanların xüsusi qulluqla saxlanılması böyük ənənəyə çevrilib. Bəzən heyvanlar aylarla xüsusi yemlə bəslənir, rəngli bəzəklərlə təqdim olunur. Sosial status göstəricisi kimi bahalı qurbanlıqlar nümayiş etdirilən hallar da var.

## Ərəb ölkələri

Səudiyyə Ərəbistanı və Körfəz ölkələrində daha sadə yanaşma üstünlük təşkil edir. Burada əsas diqqət dini qaydalara uyğunluğa və gigiyenaya verilir. Dekorativ bəzəklər nisbətən az istifadə olunur.

**Avropa ölkələri**

Avropada yaşayan müsəlman icmaları isə əsasən daha minimalist yanaşma sərgiləyir. Heyvan hüquqları ilə bağlı qanunlar və ictimai həssaslıq səbəbindən qurbanlıq prosesində nümayiş xarakterli davranışlardan qaçılır

## Sosial şəbəkələr ənənəni dəyişdirirmi?

Son illərdə "ən fərqli qurbanlıq", "ən böyük qoç", "ən bahalı heyvan" kimi paylaşımlar bəzi hallarda ibadətin mənəvi tərəfini kölgədə qoyur. Mütəxəssislər hesab edir ki, qurban ibadətinin əsas mahiyyəti ehtiyacı olanlarla paylaşmaq, yardımlaşmaq və mənəvi yaxınlıqdır. Buna görə də ifrat nümayiş və sosial şou tendensiyası birmənalı qarşılanmır.

Heyvan hüquqları məsələsi də gündəmdədir

Bayram günlərində heyvanlara qarşı davranış da ciddi müzakirə olunur. Baytarlar və heyvan hüquqları müdafiəçiləri bildirirlər ki:

-Kimyəvi boya istifadəsi,

-Heyvanı uzun müddət bəzək altında saxlamaq,

-Səs-küylü mühitdə stress yaratmaq;

-Sosial media üçün heyvana əziyyət verməkdoğru yanaşma deyil.

Qurbanlıq qoyunu bəzəmək bir çox cəmiyyətdə qədim ənənə və bayram elementi kimi qəbul edilsə də, burada əsas məsələ ölçünü qorumaqdır. Sadə və heyvana zərər verməyən bəzəklər bəzi insanlar tərəfindən normal qarşılansa da, ibadətin nümayişə çevrilməsi və heyvana əziyyət verilməsi həm dini, həm də etik baxımdan mənfi qiymətləndirilir. Qurbanın mahiyyəti görüntüdə deyil, niyyətdə, paylaşmaqda və mərhəmətdədir.

*Ayşən Vəl*

**"SƏS" qəzetinə abunə kampaniyası davam edir!**



«SƏS» QƏZETİNƏ ABUNƏ OLMAQ İSTƏYƏNLƏR AŞAĞIDAKI YAYIM ŞİRKƏTLƏRİ İLƏ ƏLAQƏ SAXLAYA BİLƏRLƏR

1. Azərpoçt Poçtdaşıma Mərkəzi – 0125984955, 0552004544
2. Mətbuat Yayım MMC – 0124411991, 0124404694
3. Səma Mətbuat Yayım – 0125940252, 0503336969
4. Pressaİnform MMC – 0125115191, 0504560835, 0553156002
5. Qaya Mətbuat yayım – 0125667780, 0502352343
6. Ziya LTD – 0124977696, 0503067744
7. Bakmətbuat MMC 0502644010

1 nüsxə 1 aylığı 8 AZN

6 aylıq 48 AZN

1 illik 96 AZN

ABUNƏÇİLƏRİMİZİN XİDMƏTİNDƏYİK
Müraciət, şikayət, yazı, təbrik və başsağlıqlarınızı dərc etməyə hazırıq!

**"Təmir-Tikinti AzNY" QSC-nin 2025-ci il maliyyə hesabatı**

| S/S | Açıqlama | Məbləğ |
|---|---|---|
| !! | İcarədən daxil olub: | 60 000,00 |
| !! | Xərclər | |
| 1 | Amortizasiya xərcləri | 5 043,61 |
| 2 | Əmək haqqı | 10 321,57 |
| 3 | DSMF | 4 107,30 |
| 4 | Bank xərcləri | 373,38 |
| 5 | Torpaq vergisi | 163,80 |
| 6 | Audit rəyi | 500,00 |
| 7 | İşçilərin bədbəxt hadisələrdən sığortası | 120,60 |
| 8 | Səhmlərin saxlanması xərci | 84,75 |
| !! | Cəmi: | 20 715,01 |
| !! | Mənfəət: | 39 284,99 |
| !! | 75% güzəştli mənfəət: | 29 463,74 |
| !! | Mənfəət vergisi (20%): | 1 964,25 |
| !! | Xalis mənfəət: | 37 320,74 |
| | 1 səhmə düşən dividentin məbləği | 3,00 AZN |

Baş redaktor:
Bəhruz Quliyev

Ünvanımız:
Bakı şəhəri,
Üzeyir Hacıbəyli küçəsi, 66.
Şəhadətnamə:№ 022492
sesmediaqrup@gmail.com
sesqazeti@gmail.com
"ƏLİNCƏ" AZƏRBAYCAN XEYRİYYƏ CƏMİYYƏTİNİN ORQANI.
QƏZET 1991-Cİ İL YANVARIN 11-DƏN ÇIXIR
Tel: 598-33-90
Faks: 493-11-62

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

Qəzet həftədə iki dəfə nəşr olunur

Tiraj: 2000